# Gənclərə kitabxana xidməti

Məlumdur ki, kitabxanalardan oxucuların istifadəetmə potensialı nə qədər yüksək olarsa, onların mütaliə səmərəliyi, məlumat dolğunluğu bir o qədər zənginləşir. Odur ki, gənclərə göstərilən xidmət işinə elmi surətdə əsaslandırılan, idarəedilən bir proses kimi baxılmalıdır.

Gənclərə göstərilən xidmətin səmərəliliyi bilavasitə kitabxana fondlarının tərkib zənginliyi və ondan dolğun istifadə edilməsi ilə sıx bağlıdır.

Ulu öndərimiz Azərbaycan Respublikasının Prezidenti, türk dünyasının sevimlisi Heydər Əli-



***Gənclərə xidmət işi kitabxana fəaliyyətinin ən mühüm sahəsini təşkil edir. Müasir dövrdə kitabxananın əsas göstəricilərindən biri kimi gənc oxuculara xidmət işi bir sıra üstünlüklərə malikdir. Bu üstünlük ilk növbədə həmin oxucu kütləsinin kitabxanaya cəlb olunmasının səviyyəsi ilə ölçülür.***

yev demişdir: «Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində – dünya tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır».

Bu proqram göstərişlərinin müvəffəqiyyətlə həyata keçirilməsində kitabxanamız geniş imkanlara malikdir.

Kitabxana gənclərin mənəvi tələbatını lazımi səviyyədə ödəməyə yeni perspektivlər açır, xidmət işinin səmərələşdirilməsinə güclü stimul yaradır. Bu perspektivləri və üstünlükləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a)Kitabxana filiallarında gənc oxucuların xidmət dairəsi genişlənir, gənc oxucuların tələblərini ödəyə bilən zəngin fond sistemi yaranır və təkmilləşir.

b) Mərkəzləşmə şəraitində bütün gənclərə, istehsalat kollektivlərinə və təşkilatlara kitabxana xidməti getdikcə təkmilləşir, onların tələbləri daha dolğun şəkildə təmin olunur;

v) Bütün xidmət sahələrinin, quruluş bölmələrinin (filialların) vahid xidmət sistemində mərkəzləşdirilməsi təmin olunur və gənclər üçün geniş mütaliə perspektivləri yaranır;

q) Gənclərə xidmət işinin tənzimlənməsi və idarə edilməsi üçün daha geniş imkanlar açılır;

d) Gənclərin məlumat-biblioqrafiya aparatından istifadə imkanı artır.

Xidmət işinin ümumi keyfiyyətinə təsir göstərən əsas amillərdən birini vahid kitabxana fondunun zənginliyi təşkil edir. Hazırda respublikamızda kütləvi kitabxanaların timsalında formalaşan bütün mərkəzləşdirmə sistemində gənc oxuculara xidmət edən vahid fond və filiallar vardır.

Vahid fondun zənginliyi həmçinin gənc oxucuların tələbatı, sorğusu ilə müəyyənləşir. Onların qarşısında duran təhsil, ideoloji, siyasi, iqtisadi təsərrüfat, mədəni vəzifələrlə əlaqədar bu tələbat və sorğu müxtəlif səpkidə özünü büruzə verə bilər.

Həm də bu vəzifələr vahid kitabxana fondlarının və filialların məzmun zənginliyinə, tərkib dolğunluğuna, formalaşmasına mühüm təsir göstərir.

Kitabxanamız respublikada tanınmış kitabxanalardan biridir. Yay aylarında kitabxanamıza şair, jurnalist və alimlərimiz gəlir, öz kitablarını kitabxanaya hədiyyə verirlər.

Milli Yaradıcılıq Akademiyasının akademiki, Moskva Dövlət Açıq Universitetinin (Bakı filialı) professoru, hüquq elmləri doktoru, «Qanun» jurnalı baş redaktorunun elmi işlər üzrə müavini, III də-



*Yəqin ki, bu kadr hər birinizə tanışdır. Amma biz nə «Yeddi oğul istərəm» filmindən, nə də bu korifey sənətkarlarımızın yaradıcılıq əlaqələrindən söhbət açacağıq. Sadəcə olaraq növbəti sayımızı izləməyi tövsiyə edirik. Jurnalımızın aprel nömrəsində unudulmaz aktyorumuz Hamlet Xanızadə haqqında danışacağıq. Bu barədə ilk dəfə eşidəcəksiniz...*

rəcəli Dövlət Ədliyyə müşaviri (ədliyyə general-mayoru) Mirağa Cəfərquluyev 60, biologiya elmləri namizədi, hörmətli müəllimim Hacı Musa Bədəlov 40, tarix elmlər namizədi Sevik Kərimova 20, «Qızıl qələm» mükafatı laueratı, jurnalist və şair İsaq Əmənullayev 35, «Qızıl qələm» mükafatı laueratı, şair İdris Şükürlü 50, şair Nəsib Niskin 30, şair Ağacəfər 25, şair İslam Qəribli 40, Nəriman Ağazadə 20 kitab hədiyyə etmişlər ki, bunlar da gənc oxuculara verilir.

Bunun nəticəsidir ki, kitabxanamızda oxucuların sayı günü-gündən çoxalır, oxucuların 70 faizini gənclər təşkil edir. Kitab dövriyyəsinin isə 75 faizi gənclərin hesabına olur.

Kitabxanamızda 2 fevral Gənclər günü 10 illiyinə həsr olunmuş kitab sərgiləri, foto-sərgilər keçirilmişdir.

Kitabxanamızın vahid oxucu bülleteni mühüm rol oynayır. Kitabxanaya müraciət edən hər bir gəncin lazımi ədəbiyyatla təmin olunmasında xidmət işinin tənzimləndirilməsi və idarə edilməsi xüsusilə böyük əhəmiyyət kəsb edir.

Mərkəzləşmə şəraitində sistemin bütün quruluş bölmələri (abonoment, qiraət salonu, kitabxanalararası abonent səyyar kitabxanaları, kitab verilişi məntəqələri və s.) gənclərin artan mənəvi tələbatının və sorğularının ödənliməsinə xidmət edir, arzu və istəklərini öyrənir, ən mühüm ədəbiyyatı onların nəzərinə çatdırır, əmək fəallığını, quruculuq əzmini artırır.

İnkişafımızın hazırkı mərhələsində gənc oxuculara xidmət işi böyük əhəmiyyət kəsb edir. Ən müasir oxucu tələbatı, Azərbaycan cəmiyyəti quruculuğunun artan miqyası genişlənir, zənginləşir və bu da gənclərə göstərilən kitabxana xidmətinin daha da təkmilləşdirilməsini tələb edir.

**Ağaş MİRZƏZADƏ,**
***Azərbaycan kənd kitabxanasının müdiri***
Lerik rayonu